*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    23 dekabr 2017-ci il    № 97 (2214)    Qiyməti 25 qəpik


# Ordu quruculuğu Vətənə sevgidir, dövlətə, dövlətçiliyə sədaqətdir

*1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Dövlətçilik atributu olan ordu quruculuğuna gərgin siyasi bir şəraitdə başlanıldı. Daxili qarşıdurmalar, hakimiyyət naminə əsassız mübarizələr, Ermənistanın Azərbaycana qarşı elan etmədən müharibəyə başlaması bu prosesə təsir göstərirdi. Vətəndaş müharibəsi ehtimalı gerçəkləşəndə, dövlətçiliyin itirilməsi təhlükəsi yarananda xalq böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıtmasını tələb etdi.*

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz, eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq.*



Digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da ilkin əsaslı islahatlar aparıldı, nizami ordunun formalaşmasına şərait yarandı. Bu, müstəqil Azərbaycanın ordu quruculuğunda Heydər Əliyev mərhələsinin başlanğıcı idi. 1994-cü ildən 2003-cü ilə kimi ordu quruculuğunda qazanılan uğurlar İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra daha da genişləndi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qurucusu ümummilli liderimiz Heydər Əliyev olan ordunun maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməyə başlanıldı. Bu, Azərbaycanın ordu quruculuğunda İlham Əliyev mərhələsinin başlanğıcı idi...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin daxili siyasəti Azərbaycanın dinamik iqtisadi inkişafına, xarici siyasəti torpaqlarımızın işğaldan azad edilməsinə və dünya dövlətlərinin ədaləti dəstəkləməsinə, işğalçının işğalçı kimi tanınmasına istiqamətlənib.

Ordunun gücü, döyüş qabiliyyəti həm də döyüş texnikaları, silah-sursatla bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il dekabrın 16-da Müdafiə Sənayesi Nazirliyinin yaradılması haqqında imzaladığı sərəncam ordu quruculuğunun daha dinamik aparılmasını təmin edən sərəncam idi. Qısa müddətdə silah, hərbi sursat istehsalına başlanıldı. Nazirliyin istehsal etdiyi məhsulların 80 faizdən çoxu müdafiə təyinatlıdır. Silahlı Qüvvələrin balansında olan zavodlarda təmir, yenidənqurma işləri aparıldı, bu müəssisələr indi ordumuzun inventarında olan hərbi texnikaların təmirini, ən müasir şəkildə modernləşdirilməsini həyata keçirməkdədir.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Ordu quruculuğu Vətənə sevgidir, dövlətə, dövlətçiliyə sədaqətdir

(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" inamı ilə ordu quruculuğunun bütün parametrlərinin (maddi-texniki bazanın möhkəmləndirilməsi, ordu quruculuğunun ardıcıllıq və davamlılıq prinsiplərinin qorunması, yeni təfəkkürə malik zabit kontingentinin, ordu quruculuğu siyasətinin formalaşdırılması və s.) genişləndirilməsini, bu parametrlərin vəhdətini təmin etdi. Ordumuz qısa müddətdə nizami ordu kimi formalaşmağa başladı.



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərkərdəliyiylə Horadiz əməliyyatı (1994), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərkərdəliyiylə aprel döyüşləri (2016) xalqın qələbəyə inamını, ordu ilə xalqın birliyini, əsgər və zabitlərin döyüş əzmini təsdiqlədi. Hər iki əməliyyat Azərbaycanda ordu quruculuğunun uğurla aparıldığının təsdiqidir...

Atəşkəs haqqında razılıq olsa da Ermənistan buna əməl etmir, təmas xəttində müxtəlif miqyaslı təxribatlar törədirdi. Belə təxribatların qarşısını almaqla ordunu formalaşdırmaq müəyyən çətinliklər yaratsa da



Ali Baş Komandanın çevik siyasəti ordu quruculuğu prosesinin dönməzliyini təmin etdi.

Düşmən qarşısında güclü ordu gördü. İstər beynəlxalq təşkilatlar, istər dünyanın konfliktologiya üzrə mütəxəssisləri, istərsə də erməni hərbi ekspertləri etiraf edirlər ki, Azərbaycanın hərbi potensialı Ermənistanın hərbi potensialından qat-qat güclüdür. Bu gücün təminatçısı ordu quruculuğunun dövlət üçün əsas prioritet məsələlərdən olması, Ali Baş Komandanın orduya diqqəti və qayğısı, şəxsi nümunəsi, bilavasitə ordu quruculuğu prosesində formalaşan, inkişaf edən ordu ilə xalqın birliyinin dönməzliyidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirir. "Dünyanın ən qüdrətli ordusu da böyük ideyaların qarşısında duruş gətirə bilməz" - kəlamı Azərbaycanda da öz təsdiqini tapdı. Ulu Öndərin azərbaycançılıq məfkurəsi əsasında böyük ideyaları dövlətçiliyin başlıca qayəsi kimi davam etdirən, ordu quruculuğunu prioritet elan edən ölkə Prezidentinin rəhbərliyi ilə son illərdə Silahlı Qüvvələrimizdə irimiqyaslı islahatlar aparılmağa başlandı. Müxtəlif təyinatlı taktiki təlimlər ordunun döyüş qabiliyyətinin artırılmasını təmin etdi. İndi Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclü ordudur.

Ən müasir silahlarla, döyüş texnikaları ilə təmin edilən Silahlı Qüvvələrimizi peşəkar zabit kadrları ilə komplektləşdirən Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, Cəmşid Naxçıvanski və Heydər Əliyev adına Hərbi Liseylərdə tədris proqramları yenilənib, zənginləşib ki, bu da zabit kadrları hazırlığının NATO standartlarına uyğunluğunu təmin edir.

Silahlı Qüvvələrin Hərbi Akademiyasında fəaliyyətə başlayan adyunktura ordu quruculuğunun elmi əsaslarla davam etdirildiyinə inandırıcı zəmanətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bəyan edib ki, Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar baş tutmasa, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Ölkə Prezidentinin bu qətiyyəti ordumuzun şəxsi heyətinin qələbəyə inamını daha da yüksəldib.

Son illərdə yeni hərbi hissələrin, hərbi şəhərciklərin istifadəyə verilməsi, Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirləri, Ali Baş Komandanın təmas xəttində, səngərlərdə zabit və əsgərlərlə söhbətləri şəxsi heyətin mənəvi-psixoloji hazırlığında mühüm rol oynayıb.

Ötən il Ermənistan silahlı qüvvələri Tərtər rayonunun kəndlərini artilleriya atəşinə tutmuşdu. Kəndlərdə dağıntılar olmuşdu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Respublikamızın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə düşmənin atəş sahəsində olan kənddə olmuş, dağıntılara baxmış, əhali ilə söhbət etmişdi. Bu səfər, bu səfərdə əhali ilə söhbət ordu quruculuğu üçün vacib bir amilin - dövlət başçısının, Ali Baş Komandanın, müharibə şəraitində sərkərdənin şəxsi nümunəsinin təsdiqi idi. Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq keçirilən kütləvi vətənpərvərlik tədbirlərindən biri - "Sənə inanırıq, ölkə rəhbəri, sənə güvənirik, Vətən əsgəri" də bu qənaətin təzahürü kimi dəyərləndirildi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin 72-ci sessiyasında çıxışı, müəyyən mənada, Azərbaycanın ordu quruculuğunun tərkib hissəsi idi.

Bakıda iki dövlət - Türkiyə və Azərbaycan arasında keçirilən "TurAz Qartalı - 2017" taktiki təlimləri təsdiqlədi ki, azərbaycanlı pilotlar yüksək pilotaj məharətinə malikdirlər. Ali Baş Komandan bu təlimi yüksək qiymətləndirdi. Belə təlimlər Hərbi Hava Qüvvələrinin, Azərbaycan Ordusunun döyüş hazırlığının göstəricisi kimi qürurvericidir və özlüyündə ordu quruculuğunun səviyyəsini ifadə edir.

Bakıda keçirilən "Dəniz Kuboku - 2017" yarışı da hərbi yönümlü beynəlxalq tədbir kimi tarixləşdi. İstər bağlanış mərasimində iştirakçı dövlətlərin rəsmilərinin, istərsə də beynəlxalq müşahidəçilərin təəssüratları Azərbaycanda Hərbi Dəniz Qüvvələrinin NATO standartlarına cavab verə biləcək səviyyədə kifayət qədər geniş imkanlara, potensiala malik olduğunu təsdiqlədi. Belə tədbirlər Azərbaycnda ordu quruculuğunun hansı mərhələdə və hansı səviyyədə olması haqqında rəy yaradır və bu rəy reallıqdır, qibtəediləcək rəydir.

2016-cı ilin aprel döyüşləri təsdiqlədi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Aprel döyüşləri xalqla ordunun birliyini daha da möhkəmləndirdi, yeniyetmələrin, gənclərin vətənpərvərlik duyğularını kükrətdi, hər fərdi əsgərləşdirdi, Böyük qələbənin uzaqda olmadığını təsdiqlədi...

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun "MSPO - 2017" sərgisində dediyi "Silahlı Qüvvələrimizin müasir ordular səviyyəsində



silahlanması ilə bərabər hərbi qulluqçuların peşəkarlıq səviyyəsinin də durmadan artırılması bu gün Azərbaycanda ordu rəhbərliyinin diqqət mərkəzindədir. Bu baxımdan hərbi bölmələrdə şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına önəm verilir və beynəlxalq səviyyədə təcrübə mübadiləsi aparılır. Azərbaycan hərbçiləri ardıcıl olaraq NATO və digər ölkələrin hərbi əməkdaşlıq planlarına əsasən keçirilən tədbirlərdə fəal iştirak edirlər. Ən müasir silahı da idarə edən insan beynidir, - deyimi də sübut edir ki, hərbi qulluqçular müasir silah və texnikaların istifadə qaydalarını mükəmməl mənimsəməyə borcludurlar" - fikri Azərbaycanın ordu quruculuğunda İlham Əliyev mərhələsini xarakterizə edir...

Ordu quruculuğu kimi geniş, əhatəli bir prosesi şərtləndirən amillərin hər birinə ayrılıqda və vəhdətdə xüsusi diqqət yetirilir. Ordunun döyüş qabiliyyətinin artırılmasında taktiki təlimlərin olduqca böyük əhəmiyyəti vardır. Ali Baş Komandanın tapşırığına əsasən keçirilən irimiqyaslı təlimlər təsdiqlədi ki, ordumuz güclüdür, Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bundan sonra da ordumuza nə qədər vəsait lazımdırsa, o qədər də ayrılacaqdır. Heç bir məhdudiyyət olmayacaq. Hərbi gücümüz eyni zamanda, torpaqlarımızın azad olunmasında və ərazi bütövlüyümüzün bərpasında öz rolunu oynayır və oynayacaq". Bu, dövlətin ordu quruculuğuna münasibətini dəyərləndirən tezisdir və belə bir tezis Azərbaycan Ordusunun dünyanın böyük dövlətlərinin orduları səviyyəsində olacağına zəmanətdir...

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqla ordunu vətənpərvərliyin tələbləri səviyyəsində birləşdirdi...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsi və rəhbərliyi ilə Müdafiə Nazirliyinin əsasnaməsi təsdiq olundu...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ordu quruculuğu siyasətinin tərkib hissəsi kimi hərbi hissələrə döyüş bayrağı təqdim olundu...

Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə xəritə bütövlüyünün bərpa ediləcəyi günün ərəfəsindədir. Xalqa sevgi, dövlətçiliyə sədaqət buna qadirdir; ordu quruculuğu Vətənə sevgidir, dövlətçiliyə sədaqətdir...

**"Azərbaycan Ordusu",**
**fotolar arxivimizdəndir**

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Dekabrın 19-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

**Foto
Natiq İSAYEVİNDİR**

# Xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş hərbi attaşeləri ilə toplantı keçirilib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən dekabrın 19-da xarici dövlətlərin silahlı qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri üçün illik yekun toplantısı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıda 28 xarici dövlətin və beynəlxalq təşkilatın 29 nümayəndəsi iştirak edib.

Müdafiə naziri adından toplantı iştirakçılarını salamlayan Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov onlara regiondakı hərbi-təhlükəsizlik vəziyyəti, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti, eləcə də orduda aparılan islahatlar, beynəlxalq hərbi əməkdaşlıq çərçivəsində il ərzində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verib və 2018-ci ildə planlaşdırılan fəaliyyətləri diqqətə çatdırıb. İdarə rəisi hərbi attaşelərin suallarını cavablandırıb.

Bakı Hərbi Attaşelər Assosiasiyasının duayeni, Rumıniya Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik Rodin Lazariou həmkarları adından bu cür tədbirlərin keçirilməsinə görə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib və gələcəkdə də səmərəli əməkdaşlığın davam edəcəyinə ümidvar olduğunu vurğulayıb.



# "Ermənistan Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir"

Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan üçün məqbul həll yolunu dəstəkləyir. Ermənistan günahkardır və bunu etiraf etmək istəmir. Türkiyənin Ermənistanla əlaqələrinin bərpa olunması üçün əvvəlcə Ermənistan qoşunlarını Azərbaycan torpaqlarından çıxarmalıdır. Ermənistan qonşu dövlətlərə qarşı münasibətinə yenidən baxmalı, ərazi iddialarından əl çəkməli və Azərbaycanın ərazi bütövlüyünə hörmət etməlidir.

Bu sözləri dekabrın 20-də Bakıda Azərbaycan, İran və Türkiyə xarici işlər nazirlərinin beşinci üçtərəfli görüşünün yekunlarına dair keçirilən mətbuat konfransında nazir Mövlud Çavuşoğlu deyib.

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Ən yaxşı artilleriya divizionu"



*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, "Silahlı Qüvvələrdə ən yaxşı artilleriya divizionu" adı uğrunda yarış keçirilib. Səhra şəraitində keçirilən yarışda bölmələrin qarşılıqlı əlaqədə fəaliyyəti, atəşin idarə olunması və müxtəlif şəraitli atəş mövqelərindən tapşırıqlar yerinə yetirilib.*

Yarış üç mərhələdə keçirilib. İlk mərhələdə artilleriya sinfində divizionun atəşinin idarə edilməsi üzrə məşqlər olub. Burada zabit heyətinə planda nəzərdə tutulmuş qaydada nəzəri bilik səviyyəsi yoxlanılıb və qiymətləndirilib.

Əsas mərhələdə digər tapşırıqlar yerinə yetirilib. Əvvəlcə şəxsi heyət düzülərək sıra baxışı keçirilib. Sonra döyüş əmri çatdırılıb. Komissiya üzvləri marşın keçirilməsinə, atəş mövqelərinin və komanda müşahidə məntəqələrinin tutulmasına nəzarət edib, şəxsi heyət tərəfindən fərdi və qrup halındakı normativlərin düzgün yerinə yetirilməsini qiymətləndiriblər. Həmçinin planlı və plandankənar hədəflərə atəş tapşırıqları icra olunub.

Yarışın üçüncü mərhələsində - yekunda ümumi hesaba görə qalib divizion elan edilib.

"N" hərbi hissəsinin divizionu "Birliyin ən yaxşı artilleriya divizionu" adına layiq görülüb. Ümumiyyətlə, yarışa cəlb olunmuş bölmələrin hamısı yüksək döyüş hazırlığı nümayiş etdirib. Əldə olunan uğurlar bütün kollektivin zəhməti ilə qazanılıb.

Təlimdə fərqlənən şəxsi heyətlə görüşmək üçün "N" hərbi hissəsinə gəldik. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh zabit Aqil Namazov hərbi hissənin təlimdə qazandığı uğurdan ağızdolusu danışdı.

- "Təlimdə tər, döyüşdə zəfər". Bu hikmətli, dəyərli sözlər dəfələrlə sınaqlardan çıxıb, - deyə zabit sözə başladı. - Hərbi hissəmizin şəxsi heyəti keçirilən yarışda fəal iştirak etdi. Topçularımız verilən komandaları dəqiq və vaxtında yerinə yetirərək, müsbət nəticələr göstərdilər. Təbiidir ki, qazanılan uğurlar bizi arxayınlaşdıra bilməz. Zabit və əsgərlərimiz bilik və bacarıqlarını daim artırırlar. Əminəm ki, başqa təlimlər kimi bu yarışın nəticəsi də döyüş hazırlığına təsir göstərəcək.

Sonra batareya komandiri baş leytenant Vilayət Orucovla həmsöhbət olduq.

- Dövlətimizin ordu quruculuğuna diqqət və qayğısını artilleriya qoşunlarında da daim hiss edirik, - zabit deyir. - Döyüş hazırlığı tədbirləri kompleks şəkildə yerinə yetirilir. Keçirilən yarışlar artilleriyaçıların nəyə qadir olduqlarını nümayiş etdirir. Hazırda bölmələrimiz ən müasir artilleriya silahları və digər sursatlarla tam təchiz edilib. Bu, qarşımıza qoyulan bütün tapşırıqların yüksək səviyyədə yerinə yetirilməsinə imkan verir.

Qalib top heyəti üzvlərinin üz-gözündə qələbə və mübarizlik əzmi var idi.

Top komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elçin Əliyev qeyd etdi ki, istənilən an Ali Baş Komandanımızın "İrəli" komandası ilə düşmənə sarsıdıcı zərbə endirməyə hazırıq.

Qısa tanışlıqdan məlum oldu ki, o, Beyləqan rayonundandır. 4 ilə yaxındır bu hərbi hissədə top komandiridir. Müddətli həqiqi hərbi xidmətini "N" hərbi hissəsində başa vurduqdan sonra yenidən taleyini ordu həyatına bağlayıb. "Mən çox sevinirəm ki, bölməmiz yarışda fərqlənərək birliyin ən yaxşı artilleriya divizionu adına layiq görülüb. Təbii ki, bu, hamının təlimdə göstərdiyi yüksək döyüş hazırlığının nəticəsidir. Tabeliyimdəki şəxsi heyət verilən tapşırığa uyğun vəzifəsini lazımi şəkildə icra etdi."

Heyət üzvlərindən biri - əsgər Səfa Məmmədov xidmətə başladığı gündən artilleriya bölməsində tuşlayıcı vəzifəsində xidmət edib. Kifayət qədər bilik və bacarıqlara malikdir.

Səfa Məmmədov təlimlərdə hər dəfə yüksək nəticələrə nail olub. "Təlimlər yüksək səviyyədə keçdi. Qazandığımız uğurlara görə komandir heyətimizə borcluyuq. Gündəlik keçirilən dərslərin nəticəsidir ki, bu gün yarışda heyətimiz yüksək nailiyyətlər əldə etdi. Biz hər zaman düşmənə ağır zərbələr endirməyə və işğal altındakı torpaqlarımızı azad etməyə tam hazırıq."

Heyətin üzvləri arasında əkiz qardaşlar da var. Laçından olan əsgər Sənan və Elqayıt İsmayılovlar öz sevinclərini bizimlə bölüşdülər.

- Sevinirik ki, qalib bölmənin əsgərləriyik. Bu gün buna görə fəxr etsək də, hələ əsl qələbəmiz qarşıdadır. Biz təkcə qalib divizionun yox, həm də gələcəkdə qalib ordunun əsgərləri olmaq arzusu ilə xidmət edirik. Artıq xidməti başa vurmağımıza az qalıb. Lakin bu o demək deyil ki, Vətənə borcumuzu bitirdik. Əsl Vətən borcumuz torpaqlarımız işğaldan azad olduğu gün bitəcək.

Heyətin digər üzvləri - əsgərlər Fariz Sarıyev və Məhəmməd Cabbarov da yarışda bacarıqları ilə fəqləniblər.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu",
foto
C.CƏFƏROVUNDUR**

# Azərbaycanın ordu quruculuğunda Prezident İlham Əliyev mərhələsi

*Dekabrın 20-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Azərbaycanın ordu quruculuğunda İlham Əliyev mərhələsi" mövzusunda "dəyirmi masa" keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi, general-mayor Rasim Əliyev bildirib ki, müasir Azərbaycan Ordusunun müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu Öndərin ötən əsrin 70-ci illərində yaratdığı Cəmşid Naxçıvanski adına Hərbi Lisey ordumuzun inkişafında böyük rol oynayıb. Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycanın ordu quruculuğuna verdiyi töhfə təkcə Cəmşid Naxçıvanski adına Hərbi Liseylə məhdudlaşmır. Azərbaycanın müstəqilliyinin bərpasından sonra 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu Öndərimiz ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirdi. Heydər Əliyevin bütün sahələrdə siyasətini uğurla davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyev bu gün ordu quruculuğunun inkişafına böyük töhfə verib. Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın 80 faizindən çoxu yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Prezidentimizin ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, bu gün Azərbaycan Ordusunun şəxsi heyətinin mənəvi-psixoloji durumu yüksək səviyyədədir. Azərbaycan Ordusunun şəxsi heyəti torpaqlarımızı düşmən tapdağından azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyir.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani mövzunun aktuallığından danışaraq bildirib ki, Azərbaycanın hərb tarixində ordu quruculuğunun xüsusi yeri var. Ordu quruculuğuna ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. Müasir Azərbaycan Ordusunu yaratmaq ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında ən böyük xidmətlərindən biridir. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunun yeni mərhələsindən danışıb.

Milli Məclisin deputatları Məlahət İbrahimqızı və Xanhüseyn Kazımlı müdrik və qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi ilə ordu quruculuğu prosesinin geniş vüsət almasından, Azərbaycan Silahlı Qüvvələrinin regionun ən güclü ordularından biri olmasından, eləcə də Vətən əsgərinin mənəvi, fiziki, iradi keyfiyyətlərinin ən yüksək səviyyəyə çatdırılmasından qürur hissi ilə danışıblar. Deputatlar cəbhə bölgələrinə səfərləri zamanı bunun şahidi olduqlarını bildirərək, ordumuzun yenilməzliyini, hərbi qulluqçuların yüksək vətənpərvərlik hisslərinə malik olmalarını, Vətən torpaqlarının azadlığı uğrunda Ali Baş Komandanın əmrini yerinə yetirməyə qadir olduqlarını qeyd ediblər.

Silahlı Qüvvələrin Hərbi Akademiyasının Adyunktura və elm şöbəsinin hərb tarixi üzrə dosenti, tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov, Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov, ehtiyatda olan birinci dərəcəli kapitan, tarix elmləri doktoru Nurulla Əliyev, yazıçı-publisist Natəvan Dəmirçioğlu, "Azeri-Defence" jurnalının baş redaktoru Rəşad Süleymanov, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvü Emin Həsənli, Azərbaycanın Milli Qəhrəmanı, şəhid Çingiz Qurbanovun atası Salman Qurbanov və başqa çıxış edənlər də son illər ölkəmizdə digər sahələrdə olduğu kimi, ordu quruculuğunda da yaşanan sürətli inkişafdan danışıb, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının qısa zaman kəsiyində yeniləndiyini, Azərbaycan Ordusunun Cənubi Qafqazın ən güclü ordusuna çevrildiyini söyləyiblər. Vətən oğullarının bu gün müxtəlif qoşun növlərində xidmət edərək döyüş hazırlığını artırdıqlarını bildirən "dəyirmi masa" iştirakçıları hərbçilərimizin torpaqlarımızı işğal etmiş Ermənistan silahlı birləşmələri ilə təmas xəttində döyüş növbəsi apardıqlarını, müstəqil dövlətimizin və dövlətçiliyimizin keşiyində ayıq-sayıq dayandıqlarını vurğulayıblar.

Bir daha diqqətə çatdırılıb ki, güclü Azərbaycan Ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir, şəxsi heyətin döyüş ruhu yüksəkdir. Ordumuz ən müasir silah və sursatlarla, zirehli texnikalarla, zenit-raket qurğuları, hərbi hava qüvvələri və s. vasitələrlə təchiz olunub. Bütün bunlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğının nəticəsində mümkün olub.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin ordu quruculuğu istiqamətində açdığı yol Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. Ötən ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha göstərdi.

Xüsusi vurğulanıb ki, Azərbaycan xalqı öz Prezidentinə inanır və işğal altındakı torpaqlarımızın Ali Baş Komandanın rəhbərliyi ilə azad ediləcəyi, ərazi bütövlüyümüzün təmin olunacağı, bayrağımızın Şuşada, Xankəndidə, Laçında və işğal altındakı digər əzəli torpaqlarımızda dalğalanacağı günün uzaqda olmadığına qəti əmindir.

# “Gücümüz birlikdədir!” mövzusunda rəsm müsabiqəsi keçirilib





Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyevin müvafiq əmrinə əsasən, mənəvi-psixoloji hazırlıq işinin əsas tərkib hissəsi sayılan mədəni-asudə işin təşkili, şəxsi heyətin mədəni-maarif tərbiyəsinin gücləndirilməsi, nümunəvi xidmətin və qabaqcıl təcrübənin təbliği məqsədilə Silahlı Qüvvələrdə qoşun növləri, Əlahiddə Ümumqoşun Ordu, birlik və birləşmələrdə "Gücümüz birlikdədir" mövzusunda rəsm müsabiqəsi keçirilib.

Dekabrın 22-də Müdafiə Nazirliyinin Hərb Tarixi muzeyində "Gücümüz birlikdədir" rəsm müsabiqəsinin 2-ci mərhələsi keçirildi. Sərgini açıq elan edən Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Əfqan Əliyev orduda şəxsi heyətin asudə vaxtının təşkil edilməsində belə tədbirlərin əhəmiyyətini vurğuladı. Qeyd etdi ki, bu cür tədbirlər bölgələrdə də təşkil edilir və şəxsi heyətin dərin marağına səbəb olur.

Rəssamlıq studiyasının rəisi Natiq Camal Əfşar çıxışında da bildirdi ki, rəsmlər yaradıcı şəkildə hazırlanıb. "Düzü mən bu şəkillərə rəssam kimi yox, kənardan bir şəxs kimi baxsam heç bir zaman bilmərəm ki, bunlar əsgər tərəfindən yaradılan əsərlərdi, həqiqətən sənətin belə layiqli davamçıları olduğu üçün fəxr edirəm. İnanıram ki, əsgərlərimiz əsərlərində tezliklə Qələbə günümüzü də əks etdirəcəklər".

3 mərhələdə keçirilən müsabiqədə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı Həmid Behbudlunun, "N" hərbi hissəsinin əsgəri Elnur Şirinovun və Hərbi Dəniz Qüvvələrinin matrosu Seymur Bayramlının əl işləri qiymətləndirildi.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Ən yaxşı tabor (divizion) komandirləri yarışlarının qalibləri mükafatlandırılıblar

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2017-ci ilin döyüş hazırlığı planına əsasən, poliqonlarda və təlim mərkəzlərində müxtəlif ixtisaslar üzrə tabor, divizion və onlara bərabər tutulan bölmələrin ən yaxşı komandirlərinin müəyyən edilməsi məqsədilə müsabiqələr keçirilib.*





Yarışlar çərçivəsində Müdafiə Nazirliyinin Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsi tərəfindən "Qaraheybət" və digər təlim mərkəzlərində, poliqonlarında "Ən yaxşı motoatıcı tabor komandiri" adı uğrunda müsabiqə təşkil olunub.

Dekabrın 20-də Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət Xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani yarışların keçirilməsi və nəticələri haqqında məlumat verib.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi, general-leytenant Nizam Osmanov qalibləri təbrik edib, onlara xidmətlərində uğurlar arzulayıb.

General-leytenant N.Osmanov bildirib ki, dövlət müstəqilliyimizin, milli təhlükəsizliyimizin, xalqımızın əmin-amanlıq içərisində yaşamasının təminatçısı olan ordumuz son illər daha da möhkəmlənib, mütəşəkkil hərbi qüvvəyə çevrilib. "Qürur hissi ilə deyə bilərik ki, Azərbaycan Ordusu regionun ən güclü ordusudur və istənilən təcavüzün qarşısını almağa, hücum tapşırığını yerinə yetirməyə qadirdir: "Ötən il aprel döyüşləri zamanı Azərbaycan Ordusu nəyə qadir olduğunu bir daha nümayiş etdirdi. Aprel döyüşlərində qazandığımız qələbə xalqımızın birliyinin, həmrəyliyinin, vətənpərvərliyinin, Azərbaycan Ordusunun güc və qüdrətinin, həmçinin Prezidentimiz, qətiyyətli sərkərdəmiz, Ali Baş Komandan İlham Əliyevin qələbəsi kimi tarixə düşdü. Ali Baş Komandanımız bu zəfərlə hərbi şöhrət salnaməmizə yeni parlaq səhifə yazdı".

Qeyd edilib ki, keçirilən irimiqyaslı taktiki təlimlər, komanda-qərargah hərbi oyunları Azərbaycan Ordusunun quruda, dənizdə və havada, istənilən iqlim şəraitində qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirməyə hər an hazır olduğunu göstərir. Müdafiə Nazirliyinin rəhbərliyi göstərilən etimadı əməli fəaliyyəti ilə doğruldur və şəxsi heyətin məsuliyyət hissi daha da artır.

Diqqətə çatdırılıb ki, Silahlı Qüvvələrin 2017-ci tədris ili üçün hazırlıq planına müvafiq olaraq Silahlı Qüvvələr, qoşun növləri və xidmətlər üzrə "Ən yaxşı tabor (divizion) komandiri" adı uğrunda yarışlar yüksək səviyyədə keçirilib. Bu yarışlarda, əsasən, tabor (divizion) komandirlərinin öz ixtisasları üzrə nəzəri biliklərinin, praktiki bacarıq və vərdişlərinin, fiziki hazırlıqlarının, eləcə də döyüşü idarəetmədə, şəxsi heyətlə işləməkdə səriştə və qabiliyyətinin yoxlanılmasına xüsusi diqqət yetirilib.

Sonra qaliblərin mükafatlandırılması haqqında Silahlı Qüvvələrin Baş Qərargah rəisinin əmri oxunub.



Tədbirdə bildirilib ki, hazırlıq məşqləri zamanı komandirlərin taktiki, atəş, fiziki hazırlığı və döyüş maşınlarının idarə edilməsi üzrə nəzəri bilikləri, eləcə də praktiki vərdişləri yoxlanılıb. Eyni zamanda, zabitlərin döyüş zamanı tabeliklərində olan bölmələrinin idarəetmə bacarıqları da qiymətləndirilib. Bütün iştirakçılar yüksək bilik və bacarıq nümayiş etdirərək yaxşı qiymətlər alıblar. Yarışların nəticələri obyektiv qiymətləndirilərək qaliblər müəyyən edilib.

Diqqətə çatdırılıb ki, yarışlar bir neçə istiqamət üzrə - motoatıcı, tank, kəşfiyyat, mühəndis, xüsusi təyinatlı, rabitə və maddi-texniki təminat taborları, raket, artilleriya, zenit-raket, gəmi divizionları və eskadrilya komandirləri arasında keçirilib.

Daha sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin Mahnı və Rəqs Ansamblının ifasında ədəbi musiqili xoreoqrafik kompozisiya təqdim olunub.

Sonda qaliblərə mükafatlar təqdim edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*22 dekabr 2017-ci il.*

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 97 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Fərəhli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Şirvanlı, Kəngərli, Sarıcalı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Ukrayna telekanalında Ermənistanın işğalçılıq siyasətindən danışılıb

*Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli hüququnu özündə saxlayır və bu istiqamətdə siyasətini davam etdirir.*

AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Azər Xudiyev Ukraynanın "5-ci kanal"ına müsahibəsində deyib.

Səfir qeyd edib ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində hələ ki, münaqişə öz ədalətli həllini tapmayıb.

"Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə ən böyük təhdiddir. Ermənistan Azərbaycan ərazilərini işğal altında saxlayır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirilib və bu günə qədər vəziyyət dəyişməz qalıb", - deyə A.Xudiyev əlavə edib.

Azərbaycan-Ukrayna münasibətlərinə dair jurnalistin sualını cavablandıran səfir qeyd edib ki, iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. Bu il ticarət dövriyyəsi ötən illə müqayisədə artıb. Azərbaycan və Ukrayna beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək nümayiş etdirir.

Səfir hesab edir ki, iqtisadi sahədə potensial daha böyükdür, ona görə də hər iki ölkənin iş adamları investisiya yatırımlarını daha da artırmalıdırlar.

AZƏRBAYCAN ORDUSU

*Müsahibə*

# "Hərbi həkimlik qədər müqəddəs peşə tanımıram"

*Həmsöhbətimiz Müdafiə Nazirliyi Mərkəzi Hərbi Poliklinikasının rəisi tibb xidməti polkovnik-leytenantı Mehriban Quliyevadır.*



**- Yaxşı olar ki, söhbətə elə tanışlıqdan başlayaq.**

- 1971-ci ildə Bakı şəhərində dəmiryolçu ailəsində doğulmuşam. Anam evdar qadın olub. Atam isə dediyim kimi, uzun müddət, 40 ildən artıq dəmiryol sahəsində çalışıb. Bəlkə də belə bir ailədə niyə həkim peşəsini seçməyim qəribə görünə bilər. Lap uşaqlıq illərimdən həkim olmaq arzusu ürəyimə hakim kəsilib. Atam mənə məktəbdə xərcləmək üçün pullar verəndə kitab mağazalarına qaçıb tibbə aid maraqlı kitablar alardım. Beləliklə 1988-ci ildə 20 saylı orta məktəbi müvəffəqiyyətlə bitirib Azərbaycan Tibb Universitetinə daxil oldum.

**- Mehriban xanım, bəs hərbçi olmaq fikri Sizdə nə vaxt, nədən yarandı? Axı adətən belə nüfuzlu bir təhsil ocağını bitirənlər çox yüksək fikirdə olurlar...**

- Əvvəlcə qeyd edim ki, hələ tələbəlik illərində əmək fəaliyyətim başlanıb. Musa Nağıyev adına təcili yardım xəstəxanasında tibb bacısı kimi çalışanda yaralı döyüşçülərə tibbi qulluq göstərirdim. Onda oğlan tələbə yoldaşlarım da cəbhə xəttinə yollanmışdı. Yaralı əsgər və zabitlərimizin şəfa tapmasına az da olsa köməyim dəydiyi üçün özümü xoşbəxt sanırdım. Elə bu hisslər də məni hərbi həkim olmağa ruhlandırdı. Həmin dövrdə ölkəmizdə vəziyyətin son dərəcə ağır, mürəkkəb olduğunu başa düşürdüm və buna görə də orduda hərbi həkim kimi xidmət etmək, Vətənimə, xalqıma töhfə vermək qərarına gəldim.

**- Hərbi səhiyyədə çalışan peşəkar insanlardan kimləri ideal seçdiniz?**

- 1994-cü ildə Daxili Qoşunların nəzdində olan hərbi hospitala üz tutdum və burada tale məni nəcib bir adamla - təcrübəli tibb xidməti polkovniki Siyavuş Rüstəmovla görüşdürdü. Əsl vətəndaş, böyük ürək sahibi idi. Çox təəssüf ki, onun haqqında keçmiş zaman ifadələrini işlətməyə məcburam, çünki həyatla vaxtsız vidalaşıb. Onu hərbi kollektivdə hamı çox istəyirdi, mühafizədə dayanan əsgərdən tutmuş, həkimə, xəstələrə qədər - hər kəs ona ehtiram bəsləyirdi. Siyavuş həkim Daxili Qoşunlarda tibb xidmətinin təşkilinə, bu qoşun növündə hospitalın yaradılmasına böyük əmək sərf etmişdi. Məhz belə bir nəcib insanın, vətənpərvər və tələbkar zabitin tabeliyində xidmət etmək mənə çox vərdişlər aşıladı. Ömrünün mənasını Vətənə, xalqa xidmətdə tapıb, gecəsini-gündüzünü bu müqəddəs amala bağlayan hər kəsi özümə ideal bilirəm.

**- Mehriban xanım, hərbi səhiyyəmizdə xidmətləri olan bir çoxları ilə görüşüb qəzetimiz üçün müsahibələr hazırlayanda adətən məni maraqlandıran bir sual da olub. Hərbi həkim üçün hansı and daha müqəddəsdir: Hippokrat andı, yoxsa Hərbi and?**

- Mən deyərdim ki, hər ikisi eyni dərəcədə əhəmiyyətlidir, vacibdir. Ümumiyyətlə, bir qayda olaraq hansı peşənin sahibi olursan, ol, ən birincisi, əsl vətəndaş olmağı bacarmaq lazımdı. Əgər Hippokrat andı peşə andımız sayılırsa, Hərbi and Vətənimizə, xalqımıza, dövlətimizə sədaqət andımızdır. Yüksək rütbəli tibb zabiti olsam da, bu gün də, sabah da özümü Vətənimizin əsgəri hesab edirəm. Ümumiyyətlə, yer üzündə hərbi həkimlik qədər müqəddəs peşə tanımıram.

Hərbi formanı orduya taleyim bağlanan gündən müqəddəs sayıram, çünki əsgər, yaxud zabit bir dövlətin, bir millətin rəmzi deməkdir. Müstəqil dövlətin ərazilərini düşmənlərdən qorumaq kimi ən müqəddəs vəzifə məhz əsgər və zabitlərimizə həvalə olunur. Mənim yanıma müxtəlif bölgələrdən zabit, gizir, yaxud da əsgər gələndə, heç fərq qoymadan hər birini eyni hörmətlə qarşılayıram. Axı Vətənimiz, torpaqlarımız belə insanların hesabına qorunur.

**- Bir çoxlarından xoşbəxtlik nədir sualına cavab soruşanda xoşbəxtliyi yalnız sağlamlıqda axtaranlar da tapılır. Bu fikirlə razılaşmaq olarmı?**

- Xeyr. Xoşbəxtlik nisbi anlayışdır, heç kim mütləq xoşbəxtliyə yetişə bilmir. Amma xoşbəxtliyin sirrini yalnız sağlamlıqda axtarmaq əsla düzgün alınmaz. Elə adam tapırsan ki, uzun ömür sahibidir, amma yaşadığı illərin heç bir mənası yoxdur. Hərb elminin məşhurlarından Pavlov hesab edirdi ki, heyvanı da əhliləşdirib ona şüur aşılamaq mümkündür, amma insan vicdan meyarı ilə başqa canlılardan seçilir. Yəni demək istəyirəm ki, hər kəs ona nəsib olan ömür payını vicdan, məsuliyyət hissi ilə mənalı yaşamalıdır. Məsələn, qəhrəmanlarımızı, şəhid olan fədakar hərbçilərimizi götürək. Belələri bir ailədə, bir nəsildə doğularaq bir el üçün, millət, xalq üçün yaşadılar. Bu gün də, sabah da dillərdə əzbər olacaqlar. Gərək həyatını elə yaşayasan ki, dönüb arxaya, yaşadığın illərə nəzər yetirəndə peşiman olmayasan. Məhz buna görə də hər kəs özünə bir sualla hesabat verməlidir: Mən xalqım, Vətənim üçün nələr etmişəm? Əgər bu suala cavab verməyə haqqın varsa, deməli özünü xoşbəxt saya bilərsən.

**- Yəqin ki, Mehriban xanım da xoşbəxtlərdən biridir...**

- Yox, belə düşünməzdim, gəlin sualı başqa mənada cavablandıraq. Mən düşünürəm ki, vətənpərvər insanlar qədir-qiymət sahibləridir. Və bu mənada özümü xoşbəxt hesab edərdim, çünki ömrümün böyük hissəsi Vətənimizə xidmətlə bağlıdır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, vətənpərvərlik böyük bir məfhumdur. "Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Əslində dahi rəhbərin irsi, həyatı və fəaliyyəti hər kəsə, həm zabitlər, hərbi qulluqda çalışanlar, həm də cəmiyyətin müxtəlif sahələrində işləyən adamlar üçün əsl nümunədir, məktəbdir. Mən də zamanında onun müasiri olduğum üçün fəxarət duya bilərəm. Heydər Əliyev elə bir dünya şöhrətli dövlət rəhbəri idi ki, çox çətin və mürəkkəb şəraitdə heç nədən, hətta fiziki varlığını itirməkdən belə çəkinmədən Vətənimiz üçün nələr etmədi. Təkcə müasir Silahlı Qüvvələrimizin inkişafında onun müdrik komandan kimi misilsiz xidmətlərini təhlil edəndə başa düşürsən ki, görün bu insan nə qədər böyük istedada, qurub-yaratmaq enerjisinə malik olub. Hərbi səhiyyəmizin yaranıb formalaşması məhz Ulu Öndərimizin adı ilə bağlıdır. Bir müddət, daha dəqiq desəm, 6 ay qardaş Türkiyə Respublikasında dünya şöhrətli Gülhanə Araşdırma və Egitim Xəstəxanasında təkmilləşdirmə kursu keçmişəm. Bu, böyük tibb ocağıdır və müasir tibb elminin nailiyyətləri əsasında tam formalaşıb...

**- Sözünüzü kəsdiyim üçün üzr istəyirəm, zaman orada müalicə olunan Ulu Öndərimiz ölkəmizdə də belə bir səhiyyə ocağının yaradılmasını arzulamışdı...**

- Ümumiyyətlə ömrünü həsr etdiyi Vətənimizin bütün sahələrini inkişaf etdirmək, Azərbaycanı beynəlxalq aləmdə sayılıb-seçilən bir dövlət kimi tanıtmaq onun ən böyük arzusu idi. Əlbəttə, doğru dediniz, Heydər Əliyev ölkəmizdə hərbi təbabəti arzuladığı kimi yaratmağa səy göstərdi. Və bu yolu hazırda onun siyasət və həyat məktəbinin layiqli yetirməsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyev böyük inamla davam etdirir. 2003-cü ildən bəri, 15 ilə yaxın bir zamana diqqət yetirin, görün cənab Prezident dövlətimizin inkişafı, xalqımızın rifahı naminə nə qədər işlər görüb. "Azərbaycanda ordu quruculuğunu daha da inkişaf etdirmək mənim siyasi xəttimin əsas istiqamətlərindən biri olacaqdır", - deyən cənab Ali Baş Komandanın məqsədyönlü siyasəti nəticəsində Silahlı Qüvvələrimiz qısa bir vaxtda böyük inkişaf yolu keçdi. Təsadüfi deyil ki, dünya orduları sırasında Azərbaycan Ordusu da qabaqcıl yer tutur. Ordumuz hərbi qüdrətinə görə xalqımızın inam və güvənc yerinə çevrilib. Əslində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası Qarabağımıza, qədim Şuşamıza qayıdışın başlanğıcı olaraq xalqa böyük ruh aşıladı. Ötən ilin qısamüddətli aprel döyüşləri yaddaşımızı silkələdi, vətəndaşlarımızda ordunun gücünə inam yaratdı. Artıq Azərbaycan xalqı ruhən əmindir ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə hərbi gücünü durmadan artıran ordumuz Qələbəmizi mütləq təmin edəcəkdir.

**- Cənab polkovnik-leytenant, uzun müddətdir hərbi səhiyyə sistemində çalışdığınız üçün bir sualı da cavablandırmağınız yerinə düşərdi. Azərbaycanın hərbi təbabətinin dünəni və bu günü, inkişafı barədə nə deyə bilərsiniz?**

- Ölkəmizdə hərbi səhiyyə sisteminin yaranması və formalaşması prosesi kino lenti kimi yaddaşımdadır, ötən illərə diqqət yetirəndə nə qədər əhəmiyyətli, vacib işlərin görüldüyünə əmin oluram. Azərbaycanda sürətli iqtisadi inkişaf strategiyası, yuxarıda qeyd etdiyim kimi, bütün sahələrin, həmçinin hərbi tibb xidmətinin böyük miqyasda inkişafına zəmin yaratdı. Doğrudan da qısa vaxt ərzində bu sahədə mühüm islahatlar aparıldı, yeni hospital və əlahiddə tibb müəssisələri yaradıldı, müasir tibbi avadanlıqlar alındı. İndi hərbi səhiyyəmizin maddi-texniki bazası, peşəkar kadr potensialı xeyli möhkəmlənib, artıq ən mürəkkəb müayinə və müalicələr uğurla həyata keçirilir. Rəhbərlik etdiyim üçün demirəm, bu gün Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının kollektivi də hərbi qulluqçuların sağlamlığının qorunmasında dəyərli köməyini əsirgəmir. Hərbi qulluqçuların illik geniş tibbi müayinəsi hazırda bizim poliklinikada yerinə yetirilir və tibbi personalımız bu vacib işin öhdəsindən bacarıqla gəlir. Təsəvvür edin, minlərlə hərbi qulluqçu, habelə müqavilə əsasında həqiqi hərbi xidmətə cəlb edilənlər, zabit və gizirlərin ailə üzvləri, 20 təqvim ilindən artıq xidmət edib ehtiyata və istefaya buraxılan hərbçilər bizə müraciət edirlər. Çalışırıq ki, hər kəs bizdən razı qalsın, buna görə də kollektivimiz öz üzərində daim məsuliyyət hiss edir.

Yeri gəlmişkən, gündəlik fəaliyyətimizdə bizə dəstək olan hər kəsə, cənab Müdafiə nazirinə, Baş Qərargah rəisinə və Tibb Baş İdarəsinin rəhbərliyinə dərin minnətdarlığımı da doğma qəzetimiz vasitəsilə çatdırmağınızı xahiş edirəm. Son bir neçə ildə Müdafiə Nazirliyi rəhbərliyinin hərbi tibb heyətinin toplantılarında müntəzəm iştirak etməsi, cənab nazirimiz general-polkovnik Zakir Həsənovun dəyərli fikir və tövsiyələrini bizimlə bölüşməsi fəaliyyətimizə böyük stimul yaradıb. Nazir həmişə tövsiyə edir ki, hərbi xidmət yalnız sağlam insanların ünvanıdır, burada hərtərəfli sağlamlığa malik olanlar xidmət etməlidirlər. Bir dəfə cənab nazir çıxışında qeyd etdi ki, hərbi tibb işçisi Vətəni qoruyan şəxsin qulluğunda dayandığı üçün bunun həm şərəfli, həm də məsuliyyətli olduğunu dərindən başa düşməlidir. Bu, bizim məsuliyyət hissimizi daha da artırır və ölkəmizin, torpaqlarımızın müdafiəsi kimi çətin və şərəfli sahədə xidmət edən hər kəsin sağlamlığını etibarlı şəkildə qorumağa ruhlandırır.

**- Mehriban xanım, söhbətimizin sonunda fürsətdən istifadə edib qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi qəzetimizin oxucuları adından səmimi təbrik edir, məsuliyyətli və şərəfli fəaliyyətinizdə uğurlar arzulayırıq. İl başa çatanda elə bil adamın ruhu da təzələnir, arzuları çoxalır. Sizin də arzularınızı qələmə almaq istərdim.**

- Təbrikə görə çox sağ olun. Mən də doğma qəzetimizin yaradıcı kollektivini, redaksiyada çalışan hər kəsi qarşıdakı əlamətdar günlər münasibətilə təbrik edir, ən xoş arzularımı bildirirəm. Bu gün Azərbaycan vətəndaşı bir böyük arzu ilə yaşayır: doğma yurd yerlərimiz işğaldan azad edilsin və ölkəmizin ərazi bütövlüyü təmin olunsun. Bundan böyük arzumuz, məqsədimiz ola bilməz.

İndi də xatırlayıram, 14 yaşım vardı, Ağdama, qohumlara qonaq getmişdik. Səhəri gün Şuşaya getməli idik, amma qəfil bir hadisə buna mane oldu. O vaxtdan Şuşa həsrəti ürəyimdədir.

Doğrudur, insan daim arzularla yaşayır, bəlkə də arzular olmasa ömrümüz, günümüz mənasız olardı. 80 yaşında ahıl bir adamı da dindirsək, ürəyindəki nə qədər istəyini bölüşər. İnşallah, üzümüzə gələn yeni 2018-ci il xalqımız, millətimiz, dövlətimiz üçün daha da uğurlu olsun.

**- Maraqlı söhbət üçün sağ olun.**

**Söhbəti apardı:
Polkovnik-leytenant
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# “Yarışlara işğaldan azad edəcəyimiz torpaqlarımızda ev sahibliyi etmək ən böyük arzumuzdur”

*Son illər ərzində Azərbaycanda bir çox sahələrdə uğurlar qazanılıb. İdman sahəsində də sorağımız sərhədləri aşaraq dünyaya səs salıb. İndi idmançılarımız dünya arenalarında yeni-yeni zirvələr fəth edirlər. İnkişaf etmiş ölkələr sırasında üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Dövlət himnimizin sədaları könülləri riqqətə gətirir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü gənclər siyasətinin əsas istiqamətlərindən biri də idmanın inkişafı ilə bağlıdır. Bu günlərdə Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyevlə söhbətləşdik.*




**- Cənab polkovnik-leytenant, öncə Mərkəzi Ordu İdman Klubunun son bir neçə ildəki fəaliyyəti barədə məlumat verməyinizi istərdim.**

- Mərkəzi Ordu İdman Klubu ölkənin ən köklü klublarındandır. 1992-ci ildən bu günədək şərəfli yol keçən klubun fəaliyyəti ölkədə və beynəlxalq arenalarda Silahlı Qüvvələri peşəkar səviyyədə tanıda bilib. MOİK-də idmanın 20 növü üzrə bölmələr fəaliyyət göstərir. İdmançılarımız Olimpiya Oyunlarında, həmçinin dünya və Avropa çempionatlarında iştirak edərək medallar qazanıblar. Qazanılmış medalların sayına görə MOİK-in adı Gənclər və İdman Nazirliyi tərəfindən həmişə fərqlənən idman klubları sırasında çəkilib. Azərbaycan milli komandasının əksər üzvləri bizim klubun təmsilçiləridir. Olimpiya, dünya, Avropa və başqa beynəlxalq yarışlarda qazanılan medalların bir hissəsi klubun idmançılarının payına düşür.

Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizdə idmanın inkişafı sahəsində kompleks tədbirlərin həyata keçirilməsini daim diqqətdə saxlayır. İdmana dövlət qayğısının təzahürüdür ki, Azərbaycanın ən ucqar rayonlarında da müasir tələblərə cavab verən olimpiya mərkəzləri fəaliyyət göstərir. Bütün bunlar gənc nəslin sağlam ruhda tərbiyəsinə, respublikamızda idmanın kütləviləşməsinə öz töhfələrini verir.

İdman da diqqət və qayğıdan kənarda deyil. Bu qayğı və şəxsən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun diqqəti ordu idmançılarında daim ruh yüksəkliyi yaradır. Bildiyiniz kimi, Makedoniya Respublikasının paytaxtı Skopye şəhərində Beynəlxalq Hərbi İdman Şurasının himayəsi altında keçirilən güləş üzrə hərbçilərin 31-ci dünya çempionatında iştirak edən hərbi qulluqçularımız qalib oldular. Cənab nazir medal qazanan idmançıları və onların məşqçilərini qəbil etdi. Görüşdə hərbçi idmançıların uğurlarını yüksək qiymətləndirən Müdafiə naziri Azərbaycanın dünyanın aparıcı idman ölkələri sırasında olduğunu bildirdi. Qeyd etdi ki, yarışlarda Azərbaycanı təmsil edən hərbi qulluqçular ölkəmizin bayrağını yüksəltmək və Dövlət himnini səsləndirməklə Azərbaycan əsgərinin döyüş əzmini və qələbə ruhunu bir daha sübut ediblər.

Ordu idmançılarının nəticələri bir daha göstərir ki, Silahlı Qüvvələrdə fiziki hazırlıq və idmana lazımınca diqqət və qayğı göstərilir. Belə münasibət hərbçi idmançıları yeni-yeni uğurlara ruhlandırır.




**- 2017-ci il başa çatmaq üzrədir. Bu il sizin təşkilatın həyatında hansı uğurlarla yadda qalacaq?**

- 2017-ci ildə klubun idmançıları respublika üzrə və beynəlxalq yarışlarda 83 medal qazanıblar. Bunlardan 67-si respublika yarışlarında əldə olunub. Medalların 28-i qızıl, 11-i gümüş, 28-i bürüncdür.

Hələ də təəssüratlarından ayrıla bilmədiyimiz Bakı-2017 İslam Həmrəyliyi Oyunlarında komanda hesabında birinci yeri tutmuş Azərbaycan yığmasının qələbəsində ordu idmançılarının da payı, zəhməti var. Bu mötəbər yarışda ikisi qızıl, biri gümüş, biri bürünc olmaqla, dörd medala yiyələndik. Azərbaycan millisinin tərkibində iki futbolçumuz İslamiadanın qalibi oldu.

Naxçıvanda Muxtar Respublikanın Gənclər və İdman Nazirliyi və Peşəkar Futbol Liqasının təşkilatçılığı ilə Ulu Öndərimizin xatirəsinə həsr edilmiş yarışda - 2-ci "Heydər Əliyev Kuboku" turnirində də ordu futbolçuları kuboku Bakıya gətirdilər.

İl ərzində iyulda Bosniya və Hersoqovinanın Sarayevo şəhərində yunan-Roma güləşi üzrə keçirilən Dünya birinciliyində qızıl, sentyabrda Litvanın Klaypeda şəhərində hərbçilər arasında keçirilən güləş üzrə 32-ci Dünya çempionatında bir qızıl, üç gümüş və altı bürünc, oktyabrda Xorvatiyanın Zaqreb şəhərində cüdo üzrə keçirilən dünya çempionatında gümüş medala layiq görülmüşük.

**- Bu günlərdə sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı başa çatdı. Qazanılan uğurlar hamımızı sevindirdi...**

- Azərbaycanda bu cür möhtəşəm yarışların təşkil olunması ölkəmizin gənc nəslinin idmana olan marağının artması ilə yanaşı, onların milli ruhunun yüksəlməsinə də öz müsbət təsirini göstərir. Əbəs yerə deyilmir ki, sağlam bədəndə sağlam ruh olur.

Bakı İdman Sarayında keçirilən sərbəst və yunan-Roma güləşi üzrə böyüklər arasında Azərbaycan çempionatında ümumilikdə 177 yunan-Roma və 212 sərbəst güləşçi mübarizə aparırdı. Çempionat gərgin və maraqlı görüşlərlə yadda qaldı.



Çəki dərəcələri üzrə ilk 3 yeri tutan idmançılarımız Azərbaycan Güləş Federasiyası tərəfindən müvafiq diplom, medal və hədiyyələrlə mükafatlandırıldı. Onlar ölkə yığma komandasının heyətinə cəlb edilərək il ərzində beynəlxalq yarışlarda ölkəmizi təmsil etmək hüququ qazandılar. Uğurlarımız göstərir ki, klubda hər idman növü üzrə təcrübəli mütəxəssislər toplaşıb. Hərbçi idmançılarımızın beynəlxalq miqyaslı yarışlarda və ölkə daxilində əldə etdiyi nailiyyətlər ordumuzun qüdrətini bir daha sübut edir, əsgərlərimizin fiziki sağlamlığına dövlətimiz, ordu rəhbərliyi tərəfindən diqqət yetirildiyini göstərir.

**- Yeri gəlmişkən idmanın inkişaf etdirilməsinin ordu quruculuğunda rolunu necə izah edərdiniz?**

- Orduda xidmətə hazırlaşan gənclər fiziki cəhətdən sağlam olmalıdırlar. Bu baxımdan Azərbaycanda görülən işlər, kifayət qədər təqdirəlayiqdir. Ölkəmizin hər bir bölgəsində yaradılan müasir idman qurğuları gənc nəslin sağlamlığına xidmət edir. Orduya hazırlaşan gənclərimiz fiziki cəhətdən inkişaf etməklə Vətənimizin etibarlı qoruyucularına çevrilirlər.

Qeyd edim ki, ordu həyatında da idmanın inkişaf etdirilməsi müstəsna əhəmiyyətə malikdir. Axı hərbi xidmət cəsurların, sağlam gənclərin yeridir. İşğala məruz qaldığımız üçün Azərbaycan Ordusunun bölmələri bu gün düşmənlə təmas şəraitində, həmçinin mürəkkəb relyefli bölgələrdə yerləşir. Elə şərait yaranar ki, əsgər əlbəyaxa döyüşə də atıla bilər. Bu zaman əsgərin fiziki hazırlığı öz sözünü deyir. Məhz buna görə də orduda idmanın rolu böyükdür.

Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planının əsas tərkib hissələrindən biri də fiziki hazırlıqdır. Şəxsi heyətin fiziki vərdişlərinin artırılması üçün vacib idman növləri üzrə Silahlı Qüvvələrdə birinciliklərin keçirilməsi artıq neçə illərdir ənənəyə çevrilib. Bu, olduqca vacibdir. Belə tədbirlər, əlbəttə, şəxsi heyətin fiziki vərdişlərinin möhkəmlənməsinə xidmət edir.

**- Yeni ilin gəlişi insanlarda yeni arzular, istəklər yaradır. Sizin arzularınız...**

- 2018-ci ildə Silahlı Qüvvələrimizin yaradılmasının 100-cü ildönümü tamam olacaq. Bununla əlaqədar qarşımıza məqsəd qoymuşuq ki, komandamız Beynəlxalq Hərbi İdman Şurasında qaliblər sırasında yer alsın, Silahlı Qüvvələrimizin şanlı yubileyinə öz töhfəsini versin, yenə də davamlı uğurlar qazanıb bayrağımızı yüksəklərə qaldırsın. Bir vətəndaş olaraq mən də arzu edirəm ki, torpaqlarımız işğaldan azad edilsin. Əzəli torpaqlarımızda keçirilən yarışlara qalib ordunun idmançıları olaraq ev sahibliyi edək.

**Leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu", fotolar çavuş Namiq PƏNAHOVUNDUR**



*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəhid mayor Urfan Vəlizadəyə həsr olunmuş film nümayiş etdirilib. Tədbirdə şəhidin ailə üzvləri, doğmaları, hərbçi yoldaşları, şəhid ailələrinin, xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları və ictimaiyyətin nümayəndələri iştirak ediblər.*

# Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində şəhid pilota həsr olunan film nümayiş etdirilib

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökümət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə "Qadın və Cəmiyyət Vətəndaş Maarifçiliyi" İctimai Birliyi tərəfindən "Azərbaycan Bayrağı" ordenli şəhid mayor, Hərbi Hava Qüvvələrinin zabiti Urfan Üzeyir oğlu Vəlizadənin həyat və döyüş yolu haqqında "VƏTƏN SAĞ OLSUN" sənədli filmi nümayiş etdirilib.

Əsgər ailələrinə Dəstək İctimai Birliyinin sədri, layihənin məsləhətçisi Mətanət Əsgərqızı çıxış edərək filmin çəkilişlərində göstərilən köməyə və bu görüşün təşkilinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra film göstərilib. 24 dəqiqəlik filmdə şəhidin həyat yolunu əks etdirən fotoşəkillər, videogörüntülər əks etdirilib.



Sonda şəhidin həyat yoldaşı Könül Vəlizadə və qardaşı Vidadi Vəlizadə çıxış edərək Müdafiə Nazirliyinin rəhbərliyinə onların ailəsinə göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər. Onlar əminliklə qeyd ediblər ki, günbəgün döyüş hazırlığını artıran Azərbaycan Ordusu torpaqlarımızı tezliklə işğaldan azad edələcəkdir.

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

*Əsgər məktubu*

# "Ürəyim Vətən üçün döyünür"

Bakı şəhərində dünyaya göz açmışam. Orta məktəbi əla qiymətlərlə başa vurub Bakı Dövlət Universitetinin hüquq fakultəsinə daxil olmuşam. Ali təhsilimi xarici ölkələrin birində davam etdirdim. Harada olsam da qəlbim hər zaman Vətənlə döyünüb. Vətən üçün darıxmışam. Dünyada Azərbaycan adlı məmləkətdən gözəl bir diyar tanımıram. Hər kəsə doğulub böyüdüyü, ilk addımlarını atdığı torpağı, Vətəni əzəzdir. Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı, - deyiblər. Azərbaycan da bizim doğma Vətənimiz, anamızdır. Onun ərazi bütövlüyü uğrunda canımızdan keçməyə hər zaman hazırıq. Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Ordumuzda xidmət edən hər bir əsgər və zabitin ən böyük arzusu düşmən tapdağında qalan torpaqlarımızı azad etməkdir. Məhz bu istəklə çırpınır onların ürəyi. Bu arzu, bu istək mütləq gerçəkləşəcək. Və o zaman xalqımız qüdrətli, nizami ordusi ilə sözün əsl mənasında qürur duyacaq. Düşmən üzərində qələbə qazanmaq ən böyük haqqımızdır...

Mən də Vətənimə övladlıq borcumu verməyə gəldim. Əsgər formasını əynimə geydiyim ilk gün həyatımın ən yadda qalan, unudulmaz günlərindəndir. Xidmətə başladığım vaxtdan hərbi vərdişlərə yiyələndim. Vəzifə borcumu, verilən tapşırıqları məsuliyyətlə yerinə yetirdim. Xidmət etdiyim müddətdə şərəfli əsgər adını daim uca tutdum. Komandirlərimin, əsgər yoldaşlarımın etibarını qazandım. Hərbi xidmətimin başa çatmasına az vaxt qalıb.



Vətənim Azərbaycana layiqincə xidmət etdiyimə və içdiyim hərbi anda həmişə sadiq qaldığıma görə valideynlərimin, doğmalarımın yanına alnıaçıq, başıuca qayıdacam. Əsgər mundirimi hərbi xidmətdən xatirə olaraq saxlayacam. Saxlayacam ki, sabah Ali Baş Komandanın səfərbərlik əmri olarsa, yenidən ordu sıralarına qayıdım və onu əynimə geyinib Vətənimizin müdafiəsində dayanım...

**Əsgər
Firudin MÖVSÜMOV,
"N" hərbi hissəsi**

*Hərbi ənənələr, yeniliklər*

# "Heidar" tüfəngi

İran dünyada ən uzaqvurma qabiliyyətinə malik olan tüfəng istehsal edib. Müasir tüfəng bu ölkədə təşkil edilmiş silahlanma sərgisində "Heidar" snayper tüfəngi adı ilə nümayiş etdirilib.

"Heidar" yarımavtomat kalibrli tüfəngdir. 2000 metrlik məsafəyə qədər hədəfi məhv eyməyə qadirdir. Çəkisi 11 kiloqram, nişangah, maqazin və süngü ilə birlikdə döyüş vəziyyətində çəkisi 17,5 kiloqrama qədərdir. Silahın



uzunluğu 135 sm, lüləsinin uzunluğu 81 santimetrdən çoxdur. İran mütəxəssisləri tərəfindən yaradılmış "Heidar" tüfəngi hədəfi yüksək dəqiqliklə məhv etmək qabiliyyətinə malikdir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

Dağlıq Qarabağda, işğal olunmuş Hadrut yaşayış məntəqəsində yerləşdirilən Ermənistan ordusunun hərbi hissələrindən birində ölümlə nəticələnən qanlı hadisə baş verib. Erməni hərbi qulluqçusunun əlində F1 əl qumbarası partlayıb və əsgər yerindəcə ölüb. 2016-cı ildə Şaumyan hərbi komissarlığından xidmətə çağırılan Qurqen Gülbandyan, 2017-ci ildə Gümrü hərbi komissarlığından çağırılan David Sarkisyan və David Martirosyan ağır yaralandıqları üçün hərbi hospitala təxliyə olunublar.

* * *

Düşmən ordusunun Azərbaycanın işğal olunmuş Madagiz yaşayış məntəqəsində yerləşən bölmələrindən birində təhlükəsizlik qaydalarının pozulması nəticəsində iki hərbçi müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Post başçısı kiçik çavuş Artur Köçaryan və artilleriya divizionunun hərbi qulluqçusu Armen Qriqoryan aldıqları zədələrə görə hərbi hospitala yerləşdirliblər.

Hər iki faktla bağlı araşdırma aparılır.

* * *

Ermənistan ordusunda hərbi xidmətdən yayınma və fərarilik halları artmaqda davam edir. Bu günlərdə məlum olub ki, düşmən ordusunun Armen adlı zabiti və Miran adlı əsgəri xidmətdən yayınmaq məqsədilə döyüş mövqeyini tərk ediblər.

Azərbaycanın Ağdərə yaşayış məntəqəsində yerləşdirilən işğalçı ordunun bölmələrindən birində hərbi hissənin tibb məntəqəsindən çıxarılaraq döyüş mövqeyinə təyin edilən Sergey Asatryan posta qalxmaqdan imtina edərək xidmət yerini özbaşına tərk edib.

Başqa bir bölüyün əsgəri Armen Vaçoyan məzuniyyətdən geri qayıtmayıb. Hərbi xidmətdən yayınan hərbçilər barədə axtarış elan edilib, barələrində cinayət işi açılıb.

* * *

Azərbaycanın Hadrut yaşayış məntəqəsində yerləşdirilən işğalçı ordunun bölmələrindən birində Tiqran Qasparyan xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb. Onurğa sütunundan zədə alan hərbi qulluqçu T.Qasparyanın vəziyyəti ağırlaşdığından Xankəndidəki hərbi hospitala yerləşdirilib.

Bu hadisə həmişə olduğu kimi yenə də Ermənistan Müdafiə Nazirliyi tərəfindən ictimaiyyətdən gizli saxlanılıb.

**Hazırladı:
İsa ELDAROĞLU**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əliyev Fazil Tiflis oğluna 2016-cı ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor** polkovnik-leytenant İlham BEHBUDOV
**Telefonlar** Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28.
**Ünvanımız** Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi
**Növbətçi** Rəşid HÜSEYNOV
**Qəzetin hesabı** Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611
Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.
Lisenziya № 361
Sifariş № 774
Nüsxə 4600